# Möcüzəli "Dəmirağacı"



*Mahmud Qacar*

**... İstər 1971-76-cı illərdə ADU-nun jurnalistika fakültəsində birgə təhsil aldığımız tələbəlik illərində, istər Azərbaycan Jurnalistlər Birliyində redaktor, 1985-88-ci illərdə "Müxbir" jurnalı, 1988-90-cı illərdə "Açıq söz" qəzetində baş redaktor, 1990-cı ildə "Açıq söz", 1996-cı ildə "Əsrin səsi" qəzetində, 1999-cu ildə "Təfəkkür" jurnalında baş redaktor, istərsə də 1993-cü ildən ETM "Təfəkkür" Universitetinin rektoru işlədiyi illərdə onu belə görmüşdüm, belə tanıyırdım.**

Öz rişələriylə ürəkdən sevdiyi Azərbaycan torpağının ən dərin laylarına bağlı olan əzəmətli, məğrur bir dəmirağacına bənzəyirdi Mail Dəmirli. Ucaldığı yüksəkliklərə ilk növbədə dəmir iradəsi ilə qovuşa bilmişdi.

Bütün yaratdıqlarının baş memarı da, baş fəhləsi də həmişə özü olmuşdu. İstər alim kimi, istər fəhlə kimi öz əməyindən xüsusi zövq ala bilirdi. Özülünə alın təri axıtdığı üçün bütün yaratdıqları dəmirağacı kimi möhkəm olurdu, gözəl olurdu.

### *Uzaqları görə bilmək,*

duya bilmək kimi fitri qabiliyyəti var idi bu uca, möcüzəli "Dəmirağacının". "Açıq söz" də, "Təfəkkür" də, "Əsrin səsi" də bu ağacın meyvələriydi, sevimli xalqına demək istədikləriydi, onun öz qəlbinin səsiydi:

**Səninləyəm odlu gənclik,**
**Gözlərini gözümə dik!**
**Gəldim ömrünü bəzəyəm -**
**Mən yeni əsrin səsiyəm!**

**Simurq quşuna dönəcəm,**
**Vətən, başına dönəcəm;**
**Yerin-göyün yiyəsiyəm -**
**Mən yeni əsrin səsiyəm!**

Daim yenilik hissi ilə yaşayan, çoxşaxəli fəaliyyətində, yaradıcılığında kəşfiyyatçı bir alim kimi səmərəli axtarışlar aparan M.Dəmirli sevimli jurnalist peşəsinə ürəkdən bağlıydı. Bu barədə söhbət düşəndə deyirdi: - Hansı sahədə çalışıramsa-çalışım, harada oluramsa-olum, həyatımı heç vaxt mətbuatdan, sevimli jurnalist peşəmdən ayrı hiss etməmişəm. Müdrik sələflərimiz H.B.Zərdabi, C.Məmmədquluzadə, N.Nərimanov, Ü.Hacıbəyov, M.Ə.Rəsulzadə ənənələrinə sadiq qalaraq çalışmışam ki, doğma xalqıma qələmimlə də müəyyən fayda verəm.

Heyrətamiz gözlənilməz öz sözləriylə desək "görəcəkli" gedişləri, qeyri-adi bəzən çox sakit, bəzənsə çox çılğın işləri, vərdişləri də var idi Mail Dəmirlinin.

### *Onlardan biri də*

öz fikrini, duyğularını bəzən poetik formada ifadə etməsi, şeirlər yazması idi. (Belə nümunələrdən bir çoxu, o cümlədən böyük şairimiz Bəxtiyar Vahabzadəyə həsr etdiyi "Eşidər dünya" başlıqlı iri həcmli lirik poeziya çələngi müxtəlif qəzet və jurnallarda dərc edilmişdir.) Yaratdığı yadda qalan maraqlı nümunələrdən birində - "Araz" çayı ilə xəyali söhbətində deyir:

**...Hey dilləndim, qəmdən coşdum,**
**Sevincdən coşa bilmədim -**
**Avropaya da qovuşdum,**
**Sənə qovuşa bilmədim.**

**Görəcəklim olmadı kəm -**
**Toxunulmaz paysan Araz.**
**Mən Arazsız bir Vətənəm,**
**Sən vətənsiz çaysan Araz...**

Mənim nəşrində iştirak etdiyim, baş redaktor müavini olduğum "Təfəkkür" elm jurnalı da onun arzusuyla yaranmışdı. Məlum səbəbdən cəmi dörd nömrəsi çap olunan bu jurnal respublikamızın istedadlı alim və tədqiqatçılarının əldə etdikləri ən dəyərli elmi nəticələri beynəlxalq aləmdə təbliğ etməyi, eyni zamanda dünya elminin, təhsil sisteminin qabaqcıl təcrübəsini elmi ictimaiyyətimizə çatdırmağı qarşısına məqsəd qoymuşdu və bu istiqamətdə öz sözünü layiqincə deyirdi. Universitetin öz nəşriyyatında, nəfis tərtibatla, bir neçə xarici dildə nəşr olunan jurnalımız oxucular tərəfindən böyük maraqla qarşılanırdı. Jurnalda gənc alimlərimizin, tələbələrimizin elmi axtarışlarından, tədris proqramlarının, metodikasının təkmilləşdirilməsindən bəhs edən materiallara geniş yer verirdik.

**Təsisçisi və baş redaktoru olduğu bu elmi məcmuədə gözəl bir yaradıcı kollektiv yaratdığı üçün, Azərbaycan ədəbiyyatının bayraqdarlarından olan, jurnalın sevimli redaktoru akademik Bəkir Nəbiyev kimi dünya şöhrətli bir alimlə, xeyirxahlıq mücəssiməsi ilə birgə fəaliyyət göstərmək, belə bir zəngin məktəbdən bəhrələnmək səadəti nəsib etdiyi üçün əziz dostum, sevimli Mail müəllimə minnətdar idim.**

Mail müəllim "Təfəkkür" Universitetində rektor işlədiyi illərdə bir çox dünya şöhrətli alimlərimiz, o cümlədən görkəmli akademiklər Fuad Qasımzadə, Bəkir Nəbiyev, Ziya Səmədzadə, Kamal Talıbzadə, Teymur Bünyadov, Aslan Aslanov, milli mətbuatımızın canlı korifeyi, professor Şirməmməd Hüseynov, xalq şairimiz, professor Famil Mehdi, xalq artisti Elmira Rəhimova və başqaları bu ali təhsil ocağında çox səmərəli fəaliyyət göstərirdilər. "Təfəkkür" Universiteti dünyanın ondan çox məşhur elm-təhsil mərkəzləri ilə sıx əməkdaşlıq edir, tez-tez birgə elmi-praktik konfranslar və digər tədbirlər keçirirdi. Mail müəllimin dostluq etdiyi böyük şəxsiyyətlər sırasında Türk dünyasının böyük oğlu, dünya şöhrətli alim İhsan Doğramacı, "Erivan və başqa ölkələrin, xalqların hesabına "Böyük Ermənistan" yaratmaq siyasəti" kitabının müəllifi Avstriyalı alim Erik Foyqel və onlarca digər nadir insanlar var idi.



### *Akademik Teymur Bünyadovun*

"Açıq söz" qəzetinin 7 aprel 2014-cü il tarixli nömrəsində dərc edilən "Ömür də bir nəğmədir" sərlövhəli məqaləsində oxuyuruq: "Unudulmaz dostum Mail Dəmirlini 30 ildən artıq idi ki, tanıyırdım. Çox sadə, səmimi, qəlbiaçıq, ürəyi geniş bir insan idi. Sözübütöv, istiqanlı, vətəncanlı. M.Dəmirli "Təfəkkür" Universitetinin uzun illər rektoru oldu. O, ürəyinin genişliyi ilə bir qrup akademikin, ziyalının təəssübkeşi idi. Onlar orada kafedra müdiri, müəllim kimi işləyərək, yüksək maaş alırdılar. O zaman ölkənin iqtisadi durumu zəif olduğu bir vaxtda Mail müəllim çox ziyalılara əl tutmuş, köməklik göstərmişdir... Yaxşı yadımdadır, qızım ağır xəstə olanda təsadüfən görüşdük. Qanımın qara olduğunu hiss etdi. Soruşdu ki, niyə belə qəmli görünürsən? Dedim, Mail dərdimi soruşma, qızım bir neçə gündür ki, ağır xəstədir. Dedi, hansı xəstəxanada yatır? Dedim, 4 nömrəli xəstəxanada... Ertəsi gün gəldi, Akademik Böyükkişi Ağayevlə söhbət apardı. Narahat olma, hamısı yaxşı olacaq - dedi. Qızım cərrahiyyə əməliyyatına aparıldı və sağalandan sonra məlum oldu ki, bu işin bütün xərcini qabaqcadan Mail ödəmişdir".

Akademik kiçik həcmli xatirə yazısında Mail müəllimin bizə yaxşı məlum olan gur işıqlı simasını bir daha göz önündə canlandırır: "Mail insanlığın, mərdliyin, ziyalılığın bariz nümunəsi idi. Onun parlaq siması, mehribanlığı, səmimiliyi heç vaxt mənim yadımdan çıxmaz. Əzizim, dost mehribanım kimi xatirələrimdə yaşayacaq".

### *Çoxlarının fəxri,*

**ümid, güvənc yeri olan "Dəmirağacı" öz qanadlarını mənim başım üzərində də gərmişdi. Ən ağır günlərimdə - Füzuli rayonunda torpağımı, evimi, işimi itirən zaman 9 nəfərlik böyük ailəmizə himayədarlıq etmişdi. Mənə böyük qayğı, etimad göstərmişdi. "Əsrin səsi" qəzetinin redaktoru, "Təfəkkür" jurnalının baş redaktor müavini kimi şərəfli iş tapşırmışdı. Oğlum Azər "Təfəkkür" Universitetinin hüquq fakültəsini fərqlənmə diplomu ilə, qızlarım Sevinc jurnalistika, Rayihə ibtidai pedaqogika, oğlum Nicat beynəlxalq iqtisadiyyat fakültəsini bitiriblər.**

...Birgə təhsil və fəaliyyət illərində dönə-dönə şahidi olmuşam ki, sevimli Mail müəllim necə duyğuludur, dost uğuruna, istedadlı adamların nailiyyətinə necə sevinir, şərik olur.

Öz gözəlliyi ilə sevin\c, fərəh bəxş edən ən xırda bir çiçəyin sozalması da onun iti nəzərindən, diqqətindən yayınmırdı. O, hardasa gördüyü gözəl bir qönçədən universitet bağçasında bitirməyə tələsdiyi qədər, dünya təhsil sistemindəki mütərəqqi təcrübəni də o qədər tez tətbiq etməyə tələsirdi. Doğma Şəmkir torpağı üçün, o torpaqda uyuyan ata-ana məzarlarını ziyarət etmək üçün "Dəmirağacı"nın necə titrədiyini, darıxdığını da görmüşəm. Onun qəlbindən qopan kövrək misralar da bunu sübut edir:

**Yatan duyğuları oyatmaq üçün,**
**Dağların gözündə boy atmaq üçün.**
**Niskilimi çayda soyutmaq üçün,**
**Təzədən o yerə qayıdacağam.**

### *...Su üçün*

təşnə olanın çeşmə üstünə qaçdığı kimi, mehribanlıqla, şəfqətlə dolu şirin çöhrəsini xəyalən olsa belə görüb, doğma səsini eşidib heyrətlənə-heyrətlənə körpə cocuq kimi kövrəlib üstünə qaçmaq istədiyi sevimli anası Həmayə xanımın müqəddəs ruhuna ithaf etdiyi "Ana" şeirində Mail müəllim həmsöhbətini "şirin laylaları ilk dərsimiz olan" anaları sevib qorumağa səsləyirdi:

**Xoşbəxtəm ruhunu şad görən zaman,**
**Nərgizimlə sənə gül dərən zaman.**
**Bir dərdli ananı güldürən zaman,**
**Gəlirəm imana-dinə, ay ana!**

Danko ürəkli "Dəmirağacı"nın özünə xas barı-bəhəri, önəmli əməlləri var. Təsadüfi deyildir ki, o ilk elmi işini məhz həyatda heç bir çətinlik, dəhşətli Lefortovo zindanı belə mübarizə əzmini qıra bilməyən milli istiqlal şairimiz Xəlil Rza Ulutürkün poeziyasının tədqiqinə həsr etmişdi. Ondan sonra isə B.Vahabzadənin ədəbi görüşlərinin tədqiqi ilə məşğul olmuşdu. Doktorluq işi müdafiəyə hazır idi.

Hər iki alovlu istiqlal şairimiz haqqında M.Dəmirlinin bir neçə dəyərli monoqrafiyası çapdan çıxmışdı.

Yıxıldığı ucalıqlar, yeri həmişə görünən möcüzəli "Dəmirağacı" haqqında yazımı ən xoşbəxt və ən kədərli anlarımda üz-üzə, təkbətək qalıb qəlbimə ən yaxın həmdəm, sirdaş sayıb dərdləşdiyim mavi gözlü Xəzər dənizinə və Xəzər təbiətli gözəl insan, sevimli tələbə dostum rəhmətlik Mail müəllimə həsr etdiyim "Sağ ol dənizim!" şeiri ilə bitirmək istərdim.

**Ah, nə üçün anadan**
**Dalğa doğulmadım mən?!.**
**M.Y.Lermantov**

**Qoynunda tapdığım**
**ahəngə görə,**
**"Qəlbindən" süzülən**
**ağ rəngi görə!**
**Verdiyin İlahi**
**fərəhə görə**
**Eşqi təmizim,**
**Sağ ol -**
**Sağ ol dənizim,**
**Sağ ol!**

**Əzizimtək qucaqlayıb**
**hey bağrıma**
**basdım səni,**
**Öpə-öpə**
**taleyimə yazdım səni;**
**Bağışla ay "göy çəmənim"**
**"əzdim" səni.**
**Bəbəyim, gözüm,**
**Sağ ol -**
**Sağ ol dənizim,**
**Sağ ol!**

**Yurdumla birlikdə**
**talandı ömrüm,**
**Daha innən belə**
**yalandı ömrüm.**
**Gəlib taleyinə**
**cahandı ömrüm,**
**Bu ülfət bəsim,**
**Sağ ol -**
**Sağ ol dənizim,**
**Sağ ol!**

**Sahilində ehtirasla**
**zər qumuna bələndim,**
**Dalğa - Ləpə döyüşündə**
**"güllələndim",**
**Sənə layiq olmaq üçün**
**çox duruldum,**
**çox ələndim.**
**Dürüstüm - düzüm,**
**Sağ ol -**
**Sağ ol dənizim,**
**Sağ ol!**

**Mənə dərinliyə**
**üzmək öyrətdin,**
**Dalğa parçalamaq,**
**əzmək öyrətdin;**
**Ən sərt tufanlara**
**dözmək öyrətdin,**
**Seçməm, şux sözüm,**
**Sağ ol, -**
**Sağ ol dənizim,**
**Sağ ol!**

**Nə yaxşı ki,**
**dağ çayıtək**
**Axıb sənə qovuşdum,**
**Dalğan olub**
**yenə təzədən coşdum;**
**Qanad verib ürəyimə**
**Qağayılara qoşdun.**
**Mələkbənizim,**
**Sağ ol -**
**Sağ ol dənizim,**
**Sağ ol!**

Ədalət.- 2020.- 22 yanvar. S. 6.